Oktyabrın 1-dən məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan yeni maliyyələşmə modeli çərçivəsində seçilmiş özəl məktəbəqədər təhsil müəssisələrində uşaqlar üçün tədris prosesinə başlanılıb.

2026/2027-ci tədris ilində məktəbəqədər təhsilin əlçatanlığının artırılması, daha çox uşağın məktəbəqədər təhsilə cəlb olunması və valideynlər üçün əlavə seçim imkanlarının yaradılması məqsədilə tətbiq olunan yeni maliyyələşmə modeli çərçivəsində 124 özəl məktəbəqədər təhsil müəssisəsi müsabiqə yolu ilə seçilib.

Yeni mexanizmə əsasən, seçilmiş özəl məktəbəqədər təhsil müəssisələrində qəbul olunan uşaqların təhsil haqqının müəyyən hissəsi dövlət tərəfindən maliyyələşdirilir.